**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

**QƏRAR**

№ 6/2

Bakı şəhəri 18 fevral 2015-ci il

Nizami Gəncəvi adına Qızıl medal
müsabiqəsi haqqında

Azərbaycan Respublikasının 2014-cü il 16 may tarixli Qanunu ilə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" haqqında əsasnamə təsdiq edilmişdir. Əsasnaməyə uyğun olaraq Nizami Gəncəvi adına Qızıl medalla Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə təltif edilirlər.

Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli fərmanının 2-ci bəndinə əsasən Nizami Gəncəvi adına Qızıl medalla təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı ilə təltif etmək üçün Qaydalar təsdiq edilsin (əlavə olunur).
2. 2015-ci il üçün Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına müsabiqə elan olunsun.
3. Nizami Gəncəvi adına Qızıl medala namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.
4. Nizami Gəncəvi adına Qızıl medal üçün irəli sürülmüş namizəd haqqında təqdimat, müvafiq sənədlərlə birlikdə 2015-ci il martın 20-dək AMEA prezidentinin 31 mart 2014-cü il 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim edilsin.
5. Ekspert Komissiyasına tapşırılsın ki, ciddi ekspertiza və qiymətləndirmə əsasında iddiaçılar sırasından 2015-ci il aprelin 01-dək Nizami Gəncəvi adına Qızıl medalla təltif ediləcək namizədlər seçilsin və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.

6. AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (texnika üzrə elmlər doktoru Əminağa Sadıqov) tapşırılsın ki, Nizami Gəncəvi adına Qızıl medal müsabiqəsi ilə bağlı təşkilati məsələləri həll etsin.
7. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT